http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 21 (1617) 16 dekabr 2015 - ci il Qiyməti 40 qəpik

# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



**Dekabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev və oğlu Heydər Əliyev Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdilər.**

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və oğlu Heydər Əliyev Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

## BU SAYIMIZDA


“HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN NİTQ MƏDƏNİYYƏTİ” KİTABININ TƏQDİMATI OLUB 2




AMEA-nın inkişafının böyük bir mərhələsi Ulu Öndərin adı ilə bağlıdır 3

“Azərbaycan Həkimlər və Təbib Tələbələr” İctimai Birliyinin təqdimat konfransı keçirilib 3



ATU-da Amerika-Avstriya Fondunun satellit simpoziumu keçirilib 4

ATU-da “Vətən sevgisi” adlı sənədli film nümayiş olunub 4




Dos. dr. Fərid Əliyev Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri seçilib 4

Azərbaycanda ilk dəfə hamilə qadının ürəyində əməliyyat aparılıb 5



ATU-da “Elsevier” nəşriyyat evinin xüsusi kampaniyasının təqdimatı keçirildi 6

**Dekabrın 1-də Azərbaycan Tibb Universitetində iki cildlik "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" kitabının təqdimat mərasimi olub. ATU-nun professor-müəllim heyəti, rezidentləri və tələbələri ilə yanaşı dilçi alimlərin, ictimaiyyət nümayəndələrinin də qatıldığı tədbiri universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev açaraq Heydər Əliyev irsinin bütövlükdə öyrənilməsi və gənc nəslə çatdırılmasının əhəmiyyətindən danışıb.**



# "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN NİTQ MƏDƏNİYYƏTİ" KİTABININ TƏQDİMATI OLUB

Universitetimizin daxili xəstəliklər kafedrasının dosenti Nağdəli Zamanovun gərgin əməyi nəticəsində ərsəyə gələn "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" monoqrafiyasında Ulu Öndərin natiqlik qabiliyyətinin müxtəlif aspektlərdən araşdırıldığını vurğulayan prorektor ictimai və sosial həyatımızın bütün sahələrinin formalaşmasında Heydər Əliyevin müstəsna xidmətləri olduğunu bildirib. Qeyd edib ki, hələ siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən ana dilimizi dövlət dili səviyyəsinə qaldırmağı bacaran ümummilli liderimizin XX əsrin sonları və XXI əsrin əvvəllərində Azərbaycan nitq mədəniyyətinin inkişafındakı rolu xüsusilə danılmazdır: "Ona görə danılmazdır ki, hər bir çıxışı, nitqindəki zənginlik, ardıcıllıq, səmimiyyət və müdriklik onu dinləyənləri maqnit kimi özünə çəkir. Bu böyük şəxsiyyətin fitri istedadına, dahiliyinə və Heydər Əliyev fenomeninə qibtə etməyə bilmirsən".

Azərbaycan Tibb Universitetində Heydər Əliyev irsinə həmişə böyük ehtiram göstərildiyini, ictimai fənlər və dil kafedralarında Ulu Öndərin tibb elminin, səhiyyənin inkişafındakı rolu barəsində dissertasiyaların müdafiə olunduğunu, inşa müsabiqələrinin keçirildiyini diqqətə çatdıran İ.İsayev dosent Nağdəli Zamanovun iki cildlik monoqrafiyasının daha geniş əks-səda doğurduğunu söyləyib.

Hər bir xalqın əsrlər boyu öz dilini təkmilləşdirməyə səy göstərdiyini deyən ictimai fənlər kafedrasının professoru Fəxrəddin Məmmədov Azərbaycan türkcəsinin tarixinə nəzər salaraq bu istiqamətdə yazarlarımızın, siyasi xadimlərimizin fəaliyyətini yüksək qiymətləndirib. Ulu öndərimiz Heydər Əliyevin adını xüsusi qeyd edərək onun ayrı-ayrı zaman kəsiyində Azərbaycan dilinə böyük diqqət və qayğı ilə yanaşmasına dair faktları önə çəkib və dilimizə olan qayğının bu gün də ölkə rəhbəri İlham Əliyev tərəfindən davam etdirildiyini vurğulayıb.

Təbabətlə məşğul olan N.Zamanovun Azərbaycan dilçilik tarixinə, dilçilik mədəniyyətinə müraciət etməsini elmimizdə yeni bir hadisə adlandıran F.Məmmədov seçilən mövzunun aktuallığına da toxunub: "Təsadüfi deyil ki, Nağdəli müəllim bu əsəri yazdıqdan sonra respublikanın tanınmış dilçi alimləri mötəbər mətbu orqanlarda monoqrafiya haqqında öz rəylərini nəşr etdiriblər. Elmi ictimaiyyət zaman keçdikcə bu əsərə layiq olduğu dəyəri verəcəkdir. Bu əsər hər hansı bir mükafata layiqdir, bunu dövlətimizin də, hökumətimizin də nəzərə alacağına inanıram. Əvvəlki dövrlər olsaydı, müəllifə dilçilik üzrə elmlər doktoru alimlik dərəcəsi də verilə bilərdi. Təbabətimizlə bərabər dilimizin, ədəbiyyatımızın da vurğunu olan N.Zamanov yeni bir məktəbin, Ulu Öndərin nitq mədəniyyəti məktəbinin yolunu açıb. Düşünürəm ki, dilçi alimlərimiz bu tədqiqat əsərindən bəhrələnərək diqqətlərini Heydər Əliyev yaradıcılığının digər sahələrinə də yönəldəcəklər".





Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının müdiri, dosent Akif Miriyev Heydər Əliyevin nitqlərinin dilçilik mövqeyindən araşdırıldığı monoqrafiyanı diqqətlə oxuduğunu bildirərək qeyd edib ki, çox böyük zəhmət hesabına ərsəyə gələn 1000 səhifəyə yaxın bir tədqiqat əsərində H.Əliyevin nitqlərindən yetərincə istifadə edilib. Bu monoqrafiya haqqında yazdığım 3 məqalənin biri "Təbib" qəzetində, biri "Ədalət" qəzetində, biri isə "Filoloji tədqiqatlar" adlı elmi məcmuədə çap olunub. Tərəddüdsüz deyə bilərəm ki, özünün bütün duyğularını, fikirlərini konkret faktlarla əsaslandıran müəllifin bu tədqiqat əsəri bizim dilçi alimlərin tədqiqatlarından heç də geri qalmır. Əksinə, daha konkretdir, birbaşa Heydər Əliyev sözünün, nitqinin qiymətini verə bilən bir tədqiqatdır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, filologiya elmləri doktoru Kamil Bəşirov "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" əsərinin təkcə Azərbaycan dilçiliyinə yox, bütövlükdə Heydər Əliyev irsinin öyrənilməsinə qiymətli bir töhfə olduğunu deyib: "İlk baxışdan "dilçiliklə həkimin nə işi var", - deyə düşünərkən həm də təbabət elminin banisi, filofsof və şair İbn Sina, həkim-yazıçı Abbas Səhhət, həkim və siyasi xadim Nəriman Nərimanov, Əziz Əliyev və digərləri yada düşür. Təbabətlə filologiya elminin sıx əlaqədə olmasına bir daha əminlik yaranır. Əslində həkimin birinci silahı da sözdür".

O, Azərbaycanın dövlətçilik tarixində Şah İsmayıl Xətaidən sonra ən böyük xidmətin ulu öndərimiz Heydər Əliyevə məxsus olduğunu söyləyərək bildirib ki, bu dahi şəxsiyyətin nitqi o qədər mükəmməl, məqsədyönlü və dəqiqdir ki, onu ziyalı adamlar da, təhsili aşağı olanlar da asanlıqla başa düşür.

Böyük zəhmətə qatlaşaraq mükəmməl bir tədqiqat əsəri yazmasını həm də müəllifin H.Əliyev şəxsiyyətinə vurğunluğu ilə əlaqələndirən natiq çıxışının sonunda dərs dediyi universitetdə tədris olunan "Nitq mədəniyyəti" fənni üzrə istifadə olunan ədəbiyyat siyahısına 2013-cü ildə **"Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti"** kitabını da əlavə etdiyini xatırladıb.

AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru Məhəmməd Cəbrayılov da özündən əvvəl çıxış edənlərin fikirlərini bölüşərək dilçiliklə bağlı bu mövzunun kifayət qədər aktual olduğunu söyləyib. Dilin, dil mədəniyyətinin inkişafı üçün iki əsas amilin - dilin səlisliyi və istifadə imkanlarının, bu dildən istifadə edən insanın hazırlıq səviyyəsinin vacibliyinə toxunaraq qeyd edib ki, hər iki faktoru ümummilli lider H.Əliyevin bütün çıxışlarında görmək mümkündür. N.Zamanovun bu məsuliyyətin altına girərək dilin strukturunun, qanunauyğunluğunun Heydər Əliyevin fikirlərində ifadə tərzinə diqqət yetirməsi, həmin nitqlərin məna yükünü, məzmun yükünü açıb göstərməsi tədqiqat əsərinin uğuru kimi qiymətləndirilə bilər.

ATU-nun Tədris Terapevtik Klinikasının direktoru, professor Surxay Musayev bu əsərin ərsəyə gəlməsi ərəfəsində müşahidə etdiklərini tədbir iştirakçıları ilə bölüşdükdən sonra dilçiliklə natiqlik məharətinin oxşar və fərqli tərəfləri barədə fikirlərini də diqqətə çatdırıb. Bildirib ki, bəzən dilimizi gözəl bilən şəxslərdə natiqlik qabiliyyətinin olmadığını dəfələrlə görmüşük. Heydər Əliyev isə istənilən auditoriyanı asanlıqla ram etməyi bacarırdı. Səhiyyəni o qədər dəqiq təhlil edirdi ki, çoxları onun tibb təhsili almadığına inanmırdı. İş elə gətirib ki, biz onun müxtəlif auditoriyalarda fərqli nitqlərinin şahidi olmuşuq. Belə bir şəxsiyyətin natiqlik qabiliyyətini təhlil etmək çox böyük bir işdir və sevindirici haldır ki, Nağdəli müəllim bu çətin, eyni zamanda şərəfli işin öhdəsindən layiqincə gəlib. Kitaba ad seçiminin də çox dəqiq olduğunu deyən S.Musayev bu tədqiqat əsərində "Heydər Əliyev Azərbaycan dilinin müdafiəsində", "Heydər Əliyev nitqi ilə izah edir", "Heydər Əliyevin nitqində məntiqi ardıcıllıq", "Heydər Əliyevin nitqində fəlsəfi fikirlər", "Heydər Əliyevin nitqində səmimiyyət", "Heydər Əliyevin nitqində qətiyyət", "Heydər Əliyevin nitqində nikbinlik" və s. başlıqlar altında böyük natiqin nitqinin araşdırılmasını yuxusuz gecələrin nəticəsi kimi dəyərləndirib.

"Məhz bizim kafedranın dosenti "Heydər Əliyev irsi" adlanan bir ümmana baş vurub və oradan öz gücü qədər incilər tapıb suyun üzərinə çıxarda bilib", - deyən I daxili xəstəliklər və reanimatologiya kafedrasının müdiri İsfəndiyar İsmayılov bu əsərin sifarişlə yazılmadığını, müəllifin içindən gələn çağırışla ərsəyə gəldiyini vurğulayıb.

Kitabı ilk növbədə sonsuz sevgi ilə yazdığını, eyni zamanda fenomenal natiqlik məharətinə malik böyük bir şəxsiyyətin nitqini araşdırmağın məsuliyyətini dərk etdiyini bildirən müəllif burada çıxış edənlərə, tədbirin təşkilatçılarına və iştirakçılarına, tədqiqat əsərinin işıq üzü görməsində zəhməti olan hər kəsə təşəkkürünü çatdırıb.

Təqdimat mərasimini yekunlaşdıran İ.İsayev Nağdəli müəllimin Heydər Əliyev irsinə, Heydər Əliyev yaradıcılığına etibarlı bir şəxs olduğunu, tədbir iştirakçılarının bu günü heç vaxt unutmayacaqlarını söyləyib. Ulu öndərin nitqlərinin davamı sayılan möhtərəm prezidentimiz İlham Əliyevin nitqlərində də araşdırılası və gənclərə çatdırılası fikirlərin çox olduğunu vurğulayan prorektor yeni bir tədqiqat mövzusunun anonsunu verərək müəllifə bu istiqamətdə uğurlar arzulayıb.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# AMEA-nın inkişafının böyük bir mərhələsi Ulu Öndərin adı ilə bağlıdır

Dekabrın 10-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) rəyasət heyətində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan "Görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətçilik təlimi və müasirlik" mövzusunda elmi konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, konfransda AMEA-nın prezidenti, akademik Akif Əlizadə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən söz açıb. Bildirilib ki, AMEA-nın inkişafının böyük bir mərhələsi Ulu Öndərin adı ilə birbaşa bağlıdır. Akademiyada Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, dilinin, milli mənəvi dəyərlərinin tədqiqi istiqamətindəki araşdırmaların aparılmasında da görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasəti mühüm rol oynayıb. Hələ keçmiş SSRİ rəhbərliyində çalışdığı vaxtlarda Azərbaycanın və xalqımızın bütün sahələrdə inkişafı görkəmli dövlət xadiminin daim diqqətində olub. Xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan Ümummilli Lider ölkəmizi məhv olmaq və parçalanmaq təhlükəsindən xilas etdi.

Konfransda AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli "Heydər Əliyevin dövlətçilik təlimi və müasir dövr" mövzusunda məruzəsində Ulu Öndərin müasir müstəqil dövlətimizin yaranmasında, inkişafında və beynəlxalq aləmdə tanınmasında tarixi xidmətlərindən danışıb.

Ulu öndər Heydər Əliyevin XX əsrin Azərbaycana, xalqımıza, dünyaya bəxş etdiyi ən böyük vətəndaş, dahi şəxsiyyət, müdrik siyasi xadim, əbədi lider olduğunu söyləyən AMEA-nın vitse-prezidenti bildirib ki, Ümummilli Liderin respublikamızın gələcəyi naminə göstərdiyi böyük fəaliyyətinin nəticələri zaman keçdikcə daha aydın şəkildə görünməkdədir. Çünki bu fəaliyyət xalqın gələcəyi üçün uzaqgörənliklə düşünülüb, ən yüksək dəyərlər səviyyəsində qiymətləndirilib və milli inkişafın strateji proqramı kimi qəbul olunub. Hazırda Ulu Öndərin milli quruculuq proqramı, bütün sahələrdə uğurlu siyasəti Prezident İlham Əliyev tərəfindən zamana və şəraitə uyğun olaraq qətiyyətlə həyata keçirilir.

Tədbirdə AMEA-nın müxbir üzvü Yaqub Mahmudovun "Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti", Azərbaycan Tibb Universitetinin dosenti Nağdəli Zamanovun "Heydər Əliyev və natiqlik sənəti", AMEA-nın Gənc Alimlər və Mütəxəssislər Şurasının sədri Famin Salmanovun "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzularında məruzələri dinlənilib. Məruzələrdə dünya şöhrətli siyasətçi Heydər Əliyevin xalqımızın, dövlətimizin, Azərbaycan elminin, gəncliyinin inkişafındakı tarixi xidmətlərindən söz açılıb.

# "Azərbaycan Həkimlər və Təbib Tələbələr" İctimai Birliyinin təqdimat konfransı keçirilib

**Dekabrın 3-də Gənclər və İdman Nazirliyinin, Azərbaycan Tibb Universitetinin, Nəsimi rayon İcra Hakimiyyətinin dəstəyi ilə ATU-nun Tədris Cərrahiyyə Klinikasında "Azərbaycan Həkimlər və Təbib Tələbələr" İctimai Birliyinin (AzərMDS) Beynəlxalq Tibb Tələbələri Assosiasiyaları Federasiyasının (IFMSA) təqdimat konfransı keçirilib.**





Konfransı Azərbaycan Tibb Universitetinin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Nadir Zeynalov açıq elan edərək, təşkilatın fəaliyyətinin əhəmiyyəti barədə iştirakçıları məlumatlandırıb və gələcək işlərində uğurlar arzulayıb. Daha sonra "Azərbaycan Həkimlər və Təbib Tələbələr" İctimai Birliyinin (AzərMDS) sədri Həzi Aslanov öz çıxışında təşkilatın Azərbaycan səhiyyəsində və ictimai həyatında oynadığı rol və verdiyi töhfələr haqqında geniş məlumat verib. Gənclər və İdman Nazirliyinin baş məsləhətçisi Ramil Məmmədov və Nəsimi rayon İcra Hakimiyyətinin Gənclərlə iş üzrə İdarəsinin rəis müavini Şahmar Tağızadə də həmçinin çıxış edərək təşkilata gələcək işlərində uğurlar arzulayıblar.

Konfrans Beynəlxalq Tibb Tələbələri Assosiasiyaları Federasiyasının (İFMSA) Azərbaycan nümayəndəliyi olan AzərMDS-in prezidenti Nərminə Ələkbərovanın çıxışı ilə davam edib. O, iştirakçılara AzərMDS-in strukturu, məqsədi, layihələri barədə geniş məlumat verib, onları təşkilatın keçmiş və indiki fəaliyyəti, gələcək planları haqqında məlumatlandırıb. Eyni zamanda, milli və beynəlxalq miqyasda keçirilən layihələrin əhəmiyyətini qeyd edərək tələbələri bu işdə fəal olmağa çağırıb.





Daha sonra AzərMDS-in Beynəlxalq işlər üzrə baş məsləhətçisi Leyla Əlizadə çıxış edərək, təşkilatın Professional Mübadilə Komitəsi tərəfindən koordinasiya olunan tibb tələbələrinin xarici ölkələrlə mübadiləsi barədə geniş məlumat verib. O, öz çıxışında mübadilədə iştirak şərtlərini və müsabiqənin gedişini iştirakçıların nəzərinə çatdırıb.

Konfransda son söz Azərbaycan Tibb Universitetinin məzunu Xalidə Mahmudovaya verilib. Xalidə xanım tələbələrlə AzərMDS-İFMSA Professional mübadiləsi çərçivəsində 2013-cü ildə Polşada keçdiyi 1 aylıq praktika barədə təəssuratları ilə bölüşüb.

Qeyd edək ki, "Azərbaycan Həkimlər və Təbib Tələbələr" İctimai Birliyi (AzərMDS) Azərbaycanı zaman-zaman IFMSA-da təmsil edib. IFMSA (International Federation of Medical Student's Associations) Beynəlxalq Tibb Tələbələri Assosiasiyalarının müstəqil, qeyri-hökümət və qeyri-siyasi federasiyasıdır.

İFMSA özündə 6 qitə, 122 ölkədən 1,3 milyon tibb tələbəsini birləşdirən dünyanın ən qədim və ən böyük tələbə təşkilatlarındandır. İl ərzində IFMSA minlərlə tibb tələbəsinin mübadiləsini təşkil edir. AzərMDS 2007-ci ildən bu federasiyanın tamhüquqlu üzvüdür. Bu günə qədər AzərMDS-in mübadilə proqramında 600-dən çox gənc iştirak edib. **Hazırda AzərMDS nəzdində 6 komitə fəaliyyət göstərir:**

*1. Kliniki Mübadilə Üzrə Daimi Komitə (SCOPE)*

*2. Elmi Mübadilə Üzrə Daimi Komitə (SCORE)*

*3. Tibb Təhsili Üzrə Daimi Komitə (SCOME)*

*4. Reproduktiv Sağlamlıq və QİÇS Üzrə Daimi Komitə (SCORA)*

*5. İctimai Sağlamlıq Üzrə Daimi Komitə (SCOPH)*

*6. Qaçqınlar və Sülh Üzrə Daimi Komitə (SCORP)*

Biz də öz adımızdan AzərMDS İctimai Birliyinə göstərdiyi mühüm fəaliyyətdə, gələcək layihələrdə böyük uğurlar arzulayırıq.

**ATU-nun mətbuat xidməti**

Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının Kino Xidməti İdarəsi Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə hazırlanan "Milli Qəhrəmanlar" sənədli filmlər həftəsi keçirir.



# ATU-da "Vətən sevgisi" adlı sənədli film nümayiş olunub

Bu münasibətlə dekabrın 2-də Azərbaycan Tibb Universitetində keçirilən tədbirdə əvvəlcə torpaqlarımızın bütövlüyü və azadlığı uğrunda şəhid olmuş qəhrəman Azərbaycan övladlarının xatirəsi bir dəqiqəlik



sükutla yad edildi. Sonra Kino Xidməti İdarəsinin rəisi Gültəkin Nəriman torpaqlarımızın bütövlüyü və azadlığı uğrunda şəhid olmuş universitetimizin məzunu, Azərbaycanın Milli Qəhrəmanı Muxtar Qasımovun keçdiyi qəhrəramanlıqlarla dolu həyat yoluna nəzər saldı. O, Muxtar Qasımov kimi peşəkar, cəsur həkimlərin cəbhə bölgəsində göstərdikləri rəşadəti hər bir gənc həkimə çatdırmaq üçün belə filmlərin mühüm rolunu qeyd etdi.



Tədbirdə Milli Qəhrəmanın tələbə yoldaşı Zahid Hüseynov, döyüş komandiri, tibb xidməti polkovniki Alı Qurbanlı, o cümlədən, cəbhə yoldaşları Məmməd Nağıyev, Samir Sabiroğlu və Azər Qasımov çıxış edərək onun keçdiyi qəhrəmanlıqlarla dolu olan döyüş yolundan danışmış, torpağını və xalqını sevən əsl vətən oğlu kimi göstərdiyi xidmətlərdən söhbət açdılar.

Çıxışlarda bildirilib ki, Muxtar Qasımov 1958-ci ildə Beyləqan rayonunun Kəbirli kəndində dünyaya göz açıb. O,1974-cü ildə N.Nərimanov adına Azəbaycan Dövlət Tibb İnstitutuna daxil olub.Tibb təhsilini başa vurduqdan sonra işləmək üçün Xankədinə təyinat alıb. Ağdamda gedən bütün döyüşlərdə yaralıları xilas etmək üçün əsl qəhrəmanlıq göstərib. Xocalı faciəsindən sonra isə Muxtar Qasımov həyatını tamamilə cəbhəyə bağlayıb. 1992-ci ilin iyununda Aranzəmin, Pircamal, Ağbulaq, kəndlərinin düşməndən azad edilməsi uğrunda gedən döyüşlərdə əsl həkim kimi öz bilik və bacarığını nümayiş etdirib. Həmin ilin 16-ı iyulunda Naxçıvanlı kəndi uğrunda gedən döyüşlərdə öz xidməti borcunu yerinə yetirərkən qəhrəmancasına həlak olub. 1993-cü ildə Muxtar Qasımov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

Tibb Universitetinin ictimai fənlər kafedrasının müəllimləri Cavanşir Sadiqov "Azərbaycanlı Sovet İttifaqı qəhrəmanları " və Elbrus Sadiqov isə "Azərbaycan xalqı milli qəhrəmanlarını heç vaxt yaddan çıxarmayacaq" mövzusunda məruzə ilə çıxış etdilər.

Azərbaycan Tibb Universitetinin rektor əvəzi, tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev cəmiyyətimizdə və eləcə də təhsil müəssisələrində belə vətən övladlarının gənclərimizə daha yaxından tanıdılması, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsi məqsədilə keçirilən tədbirlərin əhəmiyyətini vurğuladı. O, qeyd etdi ki, universitet ictimaiyyəti belə fədakar tələbələri ilə daim fəxr edir, onların Vətən, millət qarşısında özlərindən sonra qoyub getdikləri şücaətləri zaman-zaman xatırlanır və gənc nəslə örnək ola biləcək belə qeyrətli oğulları heç vaxt yaddan çıxarmır. Sözünə davam edən professor S.Əliyev bu gün ölkəmizdə şəhid adlarının əbədiləşdirilməsi, həmçinin onların ailələrinin sosial problemlərinin həll olunması istiqamətində həyata keçirilən bütün tədbirləri dövlətimizin vətəndaşlarına olan diqqət və qayğısı kimi dəyərləndirdi.

Sonda rejissor Rəşad Qasımovun çəkdiyi Azərbaycanın Milli Qəhrəmanı Muxtar Qasımovun qəhrəmanlıq salnaməsindən bəhs edən "Vətən sevgisi" adlı sənədli filmi nümayiş olundu.

Tədbirdə Azərbaycan Tibb Universitetinin rəhbərliyi, müəllim və tələbələri, həmçinin Milli Qəhrəmanın ailə üzvləri, həyat yoldaşı Mətanət xanım, yaxınları, cəbhə silahdaşları və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak edirdilər.

MƏNSUR

# ATU-da Amerika-Avstriya Fondunun satellit simpoziumu keçirilib

**Dekabrın 11-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında "Şəkərli diabet" üzrə Amerika-Avstriya Fondunun Zaltsburq seminarlarının satellit simpoziumu keçirilib. Bu geniş tədbirdə iştirak məqsədilə ABŞ-nın Kornel Universitetinin Naomi Berri Diabet Mərkəzinin yaradıcılarından biri, qurumun direktoru, professor Robin Qoland və mərkəzin əməkdaşı Dr. Loren Qolden Bakıya gəliblər.**



Tədbiri giriş sözü ilə açan klinikanın direktoru, professor Surxay Musayev qonaqları salamlayaraq simpoziumun mövzusu haqqında məlumat verdi. Onun sözlərinə görə, tədbirdə səslənəcək məlumatlar əsrimizin bəlası sayılan şəkərli diabetin müalicə və profilaktikası işində endokrinoloqlar üçün böyük əhəmiyyət kəsb edir.

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova öz çıxışında Avstriyanın Zaltsburq şəhərində keçirilən seminarlar haqqında tədbir iştirakçılarına ətraflı məlumat verdi. Prorektor tibbin müxtəlif sahələrinə həsr olunmuş və dünyanın 100-dən artıq ölkəsindən həkimlərin iştirak etdiyi həmin seminarlarda indiyə qədər Azərbaycandan, ö cümlədən Tibb Universitetindən yüzlərlə həkimin iştirak etdiyini söylədi. Onun sözlərinə görə, satellit simpoziumların müxtəlif ölkələrdə təşkilinin məqsədi təlimlərə daha geniş həkim auditoriyasının cəlb olunmasından ibarətdir. R.Qabulova professor Robin Qoland və Dr. Loren Qoldenin dəvəti qəbul edərək ölkəmizə gəldikləri üçün onlara geniş auditoriya adından təşəkkürünü bildirdi.

Daha sonra Robin Qoland çıxış edərək yaradıcısı olduğu mərkəzdə 50-ə yaxın alimin çalışdığını vurğuladı. Uşaqlarda rast gəlinən birinci tip şəkərli diabetin əlamətlərindən danışan professor dünyanın bir çox ölkəsində qeydə alınmış şəkərli diabetli xəstələrin statistik göstəricilərini təqdim etdi. Mərkəzin əməkdaşı Dr. Qolden Loren də öz növbəsində ikinci tip şəkərli diabetlə bağlı məruzəsini simpozium iştirakçılarına təqdim etdi. O, inkişaf etmiş ölkələrdə xəstəliklə bağlı tətbiq olunan müasir müalicə metodlarından söz açdı.



Daha sonra simpozium azərbaycanlı həkimlərinin xəstəlik situasiyaları haqda məruzələri ilə davam etdi. Səsləndirilən məruzələr və çıxışlar Azərbaycanın tanınmış endokrinoloqları, ATU-nun müəllim və tələbələrindən ibarət auditoriya tərəfindən böyük maraqla qarşılandı, geniş müzakirələr və suallarla müşayiət olundu.

Tədbirin sonunda iştirakçılara sertifikatlar təqdim olundu.

Qeyd edək ki, 2016-cı ilin yanvarında ATU-nun Tədris Cərrahiyyə Klinikasında bu qəbildən və oynaq-sümük patologiyası olan xəstələrin reabilitasiyasına həsr olunmuş növbəti seminar keçiriləcək.

# Dos. dr. Fərid Əliyev Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri seçilib

**ATU Tədris-Terapevtik Klinikasının Ürək-Damar Mərkəzinin rəhbəri dos. dr. Fərid Əliyev Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri seçilib.**



Ondokuz Mayıs Universiteti Tibb fakültəsini (Türkiyə) bitirən Fərid Əliyev təhsilini 2007-ci ilədək İstanbul Universiteti Cerrahpaşa Tibb Fakültəsində rezidentura pilləsində (Uzmanlık) davam etdirib. 2012-ci ildə isə, Türkiyədə imtahanla alına biləcək ən üst elmi dərəcə - dosent elmi dərəcəsini alıb.

Elmi və həkimlik fəaliyyətinə Türkiyənin İstanbul Universitetindən başlayan Fərid Əliyev 2009-cu ildən etibarən Azərbaycanda çalışır.

O, 2013-cü ildən etibarən isə Azərbaycan Tibb Universitetində daxili xəstəliklər və reanimatologiya kafedrasında fəaliyyətini davam etdirir.

Biz də bu münasibətlə Fərid Əliyevi səmimi qəlbdən təbrik edir, ona Azərbaycanda kardiologiya elminin inkişafı naminə möhkəm can sağlığı, işlərində yeni-yeni nailiyyətlər arzu edirik.

# ATU-da məlumatlandırma günü keçirildi

**Tələbələrə Avropa Komissiyasının ali təhsil proqramları haqqında məlumat verilib. Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Avropa Komissiyasının Ali təhsil sahəsində əməkdaşlıq və mobillik proqramlarına dair məlumatlandırma günü keçirilib.**



Tədbiri ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Rəhimə Qabulova açaraq "Erasmus Mundus" proqramının məqsəd və məramı haqqında iştirakçılara ətraflı məlumat verib. Xanım prorektor bildirib ki, layihənin məqsədi Avropada ali təhsilin keyfiyyətini artırmaq, üçüncü ölkələrlə əməkdaşlıq vasitəsilə insanlar və mədəniyyətlər arasında dialoqu və qarşılıqlı anlaşmanı təşviq etməkdən ibarətdir.

ATU-nun ilk dəfə iştirak etdiyi MEDEA layihəsi haqqında məlumat verən dosent Qabulova, proqramın 2013-2017-ci illəri əhatə etdiyini qeyd edib. Onun sözlərinə görə, ötən tədris illərində Tibb Universitetinin 3 bakalavr, 3 magistr və 2 müəllimi Avropanın Pol Sabatye Tuluza, Perugia, Humbolt, Kardiff, Vilnyus universitetlərində təhsillərini davam etdirməklə ixtisaslarını artırıblar.

Sonra prorektor R.Qabulova Azərbaycan Dillər Universitetinin Beynəlxalq əlaqələr ofisinin əməkdaşları İlham Abbasov və Aysel Həmidzadəni auditoriyaya təqdim etdi. Qeyd olundu ki, neçə illərdir ki, universitetlər arasında Avropa İttifaqının müxtəlif qrant proqramları çərçivəsində sıx əməkdaşlıq formalaşıb.

Qonaqlar öz növbəsində ADU-nun HERMES və EMBER layihələri haqda geniş məlumat verdilər, ATU-nun tələbələri və magistrlərini bu proqramlarda ikinci hədəf qrupu kimi iştirak etməyə çağırdılar. Tədbirdə iştirak edən tələbə, müəllim, doktorantların diqqətinə çatdırıldı ki, ötən dəfəki seçimlərdə ATU-nun bir magistri ADU-nun ALRAKİS layihəsi ilə hazırda Almaniyanın Göttingen universitetində magistratura pilləsində təhsil alır.

Tədbirdə ATU-nun Beynəlxalq əlaqələr şöbəsini müdiri, dosent Nadir Zeynalov, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun Beynəlxalq əlaqələr şöbəsinin müdiri Dr.Nəriman Səfərli iştirak ediblər.

# "Atəşgah" sığorta şirkəti ATU-nun qonağı olub

"Atəşgah" sığorta şirkəti idarə heyətinin sədr müavini Fuad İsmayılov və Tibb departamentinin bir qrup əməkdaşı Tədris Terapevtik Klinikada oldu.



Klinikanın direktoru professor Surxay Musayev ilə görüşən qonaqlar qarşılıqlı əməkdaşlığın gələcək perspektivlərini müzakirə etdilər. S.Musayev Klinikada son illər tətbiq olunan müasir elektron idarəetmə sistemləri, diaqnostika və müalicə protokolları, xəstəliklərin beynəlxalq təsnifata əsasən müəyyən olunma mexanizmləri haqqında məlumat verdi.

Daha sonra Klinikamızın baş həkimi, dosent Ramin Bayramlının müşaiyəti ilə klinikanı gəzən sığorta şirkətinin əməkdaşları şöbələrin işini yaxından izlədilər. Klinikaya "Atəşgah" sığorta şirkəti vasitəsilə daxil olmuş xəstələrə yaradılan şəraitlə tanış oldular. Sonda tibbi sığorta olunmuş xəstələrə daha yüksək xidmətin göstərilməsi üçün təkliflər səsləndirildi.

**ATU-nun mətbuat xidməti**

# Azərbaycanda ilk dəfə hamilə qadının ürəyində əməliyyat aparılıb

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının həkimləri Azərbaycanda ilk dəfə olaraq hamilə qadının ürəyində əməliyyat apararaq mexaniki klapanı dəyişiblər. Bu, dünyada üçüncü belə uğurlu əməliyyat olub.**



Klinikanın baş həkimi, dosent Asiman Həsənov əməliyyatın böyük uğurla keçdiyini, bunun nəinki Azərbaycan, ümumiyyətlə bütün dünya üzrə böyük bir nəticə olduğunu bildirir. Çünki bundan əvvəl cəmi iki dəfə belə əməliyyat sayəsində həm ananın, həm də onun bətnindəki dölün həyat fəaliyyətini davam etdirməsi halına rast gəlinib: "Adətən klapan dəyişmə əməliyyatının özü kifayət qədər ciddi bir əməliyyatdır. Bundan əlavə, bu xəstəmizdə ikincili klapan dəyişmə əməliyyatı planlaşdırılırdı. Bu, işin ciddiyyətini daha da artırırdı. Xəstə qadının hamilə, ana bətnində dölün olduğunu nəzərə alsaq, belə əməliyyatın həddən artıq məsuliyyətli olduğunu deyə bilərik. Çünki əməliyyat ana və dölün həyatı üçün riskli idi. Böyük fəxrlə qeyd etmək istərdim ki, dünyada üçüncü dəfə məhz biz hamilə qadında dölün həyat fəaliyyətini davam etdirməsi ilə belə uğurlu əməliyyatı icra etdik. Belə bir ilkə məhz Tədris Cərrahiyyə Klinikasında imza atıldığına görə qürur hissi keçiririk".

Azərbaycan üçün bir ilk olan bu əməliyyatın gedişi haqqında Tədris Cərrahiyyə Klinikasının ürək-damar cərrahiyyəsi şöbəsinin müdiri, uzman həkim Mirəli Məcidov məlumat verib. Onun sözlərinə görə, 35 yaşlı qadın 3 il əvvəl aorta qapaq stenozu problemi ilə həkimlərə müraciət edib. "Bu xanımda ürəyin aorta qapağının protezləşdirilməsi əməliyyatı icra edildi, mexaniki klapan yerləşdirildi. Əməliyyatdan sonrakı dönəmdə hansısa bir problem yaranmadı".

Lakin əməliyyatdan sonra bu xanım hamilə qalmaq istəyib. Həkimlər buna etiraz edərək hamiləliyin həmin xanıma əks göstəriş olduğunu bildirib. Həmin xanıma dölün salamat qalması ehtimalının çox az olduğu izah edilib. Buna baxmayaraq, özü də həkim olan bu xanım hamiləliyə qərar verib.

Mirəli həkim bildirir ki, belə tip xəstələrin izlənməsi çox çətindir. Çünki xəstənin ürəyindəki mexaniki klapanın işləməsi üçün lazım olan dərmanlar uşağın inkişafı üçün zərərlidir. Bu dərmanların bəzilərinin əvəzedicisi isə dünyada yoxdur. Onları yalnız qismən əvəz edən dərmanlar var. Həkim qeyd edir ki, bu müddət ana ilə yanaşı həkimlər üçün də çox önəmli və təhlükəlidir.

"Hər an ananın ürəyindəki klapanın dayanması riski var. Və bu da xəstənin həyatı üçün çox önəmli bir riskdir. Bu 6 ay ərzində həm döl, həm ana nəzarət altına alındı, mütəmadi olaraq kardioqram çəkilirdi".

Lakin 10 gün öncə xəstənin vəziyyəti pisləşərkən dölün müayinəsi zamanı məlum olub ki, dölün həyat fəaliyyəti pozulmayıb. Amma anaya qoyulan mexaniki klapanın trombozlaşması aşkarlanıb. M.Məcidov deyir ki, bu cür hallarda tək çıxış yolu xəstənin yenidən əməliyyat olunmasıdır.

"Bu, çox ağır bir qərar idi. Həmin vaxt klinikanın aparıcı heyətindən ibarət komissiya yaradıldı. Konsilium zamanı xəstənin yaxınlarının da razılığı ilə əməliyyata qərar verildi. Burada əsas ananın həyatını qurtarmaq idi. Bu cür əməliyyatlarda ananın ürəyi dayandırılır, süni ürək damarlarına klapan qoşulur və xəstə soyudulur. Bu cür əməliyyatlarda dölü itirmək təhlükəsi çox böyükdür. Lakin əməliyyat uğurla keçdi - həm ananı, həm dölü qurtara bildik".

Qeyd edək ki, əməliyyatda həmçinin ATU-nun Tədris Cərrahiyyə Klinikasının ürək-damar cərrahı, tibb üzrə fəlsəfə doktoru Seymur Musayev də iştirak edib. Onun sözlərinə görə, bu, çox çətin bir əməliyyat olmasına baxmayaraq, həkimlərin səyi nəticəsində proses uğurla başa çatıb: "Hazırda ananın da, dölün də vəziyyəti yaxşıdır və onlar evə buraxılıblar. Ürəyi əməliyyat olunan xanım normal doğuş keçirə biləcək".



ATU-nun Tədris Cərrahiyyə Klinikasının II mamalıq-ginekologiya şöbəsinin müdiri Turab Canbaxışov qeyd edir ki, hamiləliyin çox riskli olduğu xəstəyə əvvəlcədən izah edilmişdi. Buna baxmayaraq, ailə hamiləliyi davam etdirmək qərarını verib. Hamiləliyin 24-cü həftəsinə qədər hər şey normal getsə də, bundan sonra xəstənin ayağında çox cüzi şişkinlik və təngnəfəslik əmələ gəlib.

"Xəstəxanada konsilium toplandı, uşaq həkimi, ürək cərrahı həkimləri, anesteziоloqlar, reanimatoloqlar fikirlərini bildirdilər. Hətta hamiləliyə son verilməsi təklifləri səsləndi. Lakin mən bununla razılaşmadım. Hamılıqla hamilə ikən əməliyyatın icra olunmasına qərar verildi".

T.Canbaxışov deyib ki, bundan əvvəl Tədris Cərrahiyyə Klinikasında ürək əməliyyatları keçirilib. Lakin ilk dəfədir ki, hamilə qadında belə əməliyyat aparılıb.

"Əməliyyat uğurla həyata keçirildi. Hipotermiya icra olundu - ürək dayandırılaraq əməliyyat olundu. Bu, dünyada 3-cü, Azərbaycanda isə ilk belə əməliyyat idi. İnkişaf etmiş ölkələrə nəzər salsaq, orada da 90 faiz hallarda əməliyyatlar dölü itirmə ilə nəticələnib. Çünki bu tip əməliyyatlarda ananın ürəyi dayandırılır, xəstə soyudulur. Biz də bu cür riski göz önünə aldıq".

T.Canbaxışov deyir ki, belə hallarda cərrahi briqadadan çox şey asılıdır. ATU Tədris Cərrahiyyə Klinikası isə bu cür peşəkar, öz işinə diqqətlə yanaşan, məsuliyyətli həkimləri ilə qürur duyur. Onlar daim xəstələrin sağlamlığının keşiyində dayanmağa hazırdırlar.

**Günel ASLANOVA**

XATIRLANANLAR

# Sən getdin, elə bil dünya boşaldı...

Munisimsən, həmdəmimsən,
Əlimdəki qələmimsən.
İşıqlı bir səhərimsən,
Heyranın mən, müəllimim.

Vacib deyil ki, insana ya sinifdə, ya auditoriyada dərs deyəsən. Səyyarə xanımın oturuşu, duruşu, baxışı, elə varlığı insana çox şey öyrədirdi. Ədəbiyyatşünaslıqda belə bir ifadə var: "Biz hamımız Qoqolun "Şinel"indən çıxmışıq". Biz də Səyyarə xanımın məktəbini keçmişik, ordan bəhrələnmişik. Axı Səyyarə xanım da nənəsi, dünya görmüş Qakqanın – Pəri nənənin məktəbindən su içib. Səyyarə xanımın xeyirxahlığına, böyüklüyünə dəlalət edən bəzi mətləblərə toxunmaq istəyirəm.

Yadımdadır, televiziyada ötən əsrin 80-ci illərində "Kamillik" verilişi gedirdi. Səyyarə xanım o verilişdə çıxış etmişdi. Növbəti dəfə onu dəvət edəndə mənə dedi ki, İsmət, bu dəfə sən çıxış et. Etiraz etdim, dedim mən bacarmaram. Məni məcbur etdi ki, razılaşım (hərçənd ki, onda məcbur etmək xüsusiyyəti yox idi). Başqa yolum qalmadı, razılaşmalı oldum. Beləliklə, məni çıxışlara hazırladı.

Kafedraya təzə gəlmişdim. Birlikdə əsas binaya maaş almaq üçün getdik. Hiss etdim ki, Səyyarə xanımdan soruşurlar: "Bu kimdir?" Kafedranın müəllimi olduğumu, birlikdə işlədiyimizi söylədi və əlavə etdi: "Bilirsən, Azərbaycan ədəbiyyatını necə bilir? Bu tam elə deyildi. Çox cavan yaşlarım idi. Sadəcə olaraq o məni elə görmək istəyirdi, istəyirdi ki, mən öz üzərimdə çalışım, onun arzuladığı kimi müəllim olum. İllər ərzində bu amal uğrunda çalışdım.

Səyyarə xanım bir gün məni otağına çağırdı, ikimiz idik. Mənə sual verdi: - İsmət, elmi iş yazmaq istəyirsən?

Mən dərhal "yox" cavabını verdim. Səbəbini ömür-gün yoldaşımın ağır xəstə olması ilə izah etdim. Mənə başa saldı ki, elə buna görə sən öz üzərində işləməlisən. Beləliklə, məni elm yoluna gətirdi. Mən Səyyarə xanımı həmişə qələbələrimin rəhni kimi görmüşəm. Belə qəlbi genişliyi yalnız Səyyarə xanım kimi – bizim professor kimi müdrik insan edə bilərdi. Onu da deyim ki, Səyyarə xanımdan xeyirxahlıq görən tək mən deyildim, onlarla belə işlər edib, alimlər ordusu yaradıb. Hər kəs belə geniş ürəyə malik deyil.

*Mən aşiq suda yandı,*
*Ah çəkdim, su dayandı.*
*Yoxluğunu suya dedim,*
*Ay Səyyarə xanım,*
*Alışdı, su da yandı.*
*Dağlar duman oldu, gəl,*
*Halım yaman oldu, gəl.*
*Bir gününə dözmürdük,*
*Qırxın tamam oldu, gəl.*

Şıxəli Qurbanovun dəfni vaxtı böyük aktyorumuz, rejissorumuz Mehdi Məmmədov belə bir fikir söylədi:

"Şükürlər olsun ki, o dünyaya gəlmişdir, əfsuslar olsun ki, o həyatdan getmişdir". Bu sözləri Sizə də şamil etmək olar, Səyyarə xanım. Varlığınızla elm aləminə, insanlığa, böyük töhfələr verdiniz, yoxluğunuzla bir insanı – Sizin kimi müdrik, əvəzolunmaz bir şəxsiyyəti itirdik. Varlığın nə gözəl, yoxluğun nə çətin...,

*Sən getdin, elə bil dünya boşaldı,*
*Yaz da köçüb getdi, yeri boş qaldı.*
*Bu xəzan könlümü qarlı qış aldı,*
*Mən yaza vurğunam, qışı neylərəm?!*

Şair Adil Babayevin belə bir misrası var:

*Yenidən doğulur insan ölən gün.*

Siz isə dünyanızı dəyişən günü yenidən doğulmadınız. Siz sağlığınızda əməlləriniz ilə nəyə qadir olduğunuzu çoxdan sübut etmişdiniz – müdrik, həyatsevər, qayğıkeş, nikbin, xeyirxahlıq etməkdən həzz alan bir insan.



Nə deyim, Səyyarə xanım? Sizi tanıyanlar, Sizinlə təmasda olanlar, Sizin necə şəxsiyyət olduğunuzu bilənlər Sizdən danışmaqdan yorulmur, susmaq bilmir, elə deyir-deyirlər. Sizin gördüyünüz işlər, şəxsiyyətiniz qarşısında söz acizdir. Siz çox mənalı, dolğun, başqalarına nümunə ola biləcək bir ömür yaşadınız. Elminizin, pedaqoqluğunuzun, insanşünaslığınızın qarşısında baş əyirəm, Səyyarə xanım, mənim ustadım! Səsin qulaqlarda, sözün dodaqlarda, məhəbbətin isə ürəklərdə qaldı.

Allah rəhmət eləsin, qəbrin nurla dolsun, ruhun Səyyarəsevərlərə duaçı olsun. Amin!

**İsmət AĞAYEVA,**
*Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının dosenti*

# ATU-da "Elsevier" nəşriyyat evinin xüsusi kampaniyasının təqdimatı keçirildi

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında məşhur "Elsevier" nəşriyyat evinin Tədris Terapevtik və Cərrahiyyə Klinikaları üçün təşkil etdiyi xüsusi kampaniyanın təqdimatı keçirildi.**



Tədbiri giriş sözü ilə açan Klinikanın direktoru, professor Surxay Musayev bu təşəbbüsü yüksək qiymətləndirdi. 2 ay müddətində Klinika əməkdaşlarına "Elsevier" elektron kitabxanasına və bazasına pulsuz giriş imkanının yaradıldığını diqqətə çatdırdı. Sistemin özündə 2200 jurnal, 25 min adda kitab və sorğu kitabçalarının birləşdiyini vurğuladı.



"Elsevier" şirkətinin məsul şəxsi Özləm Tanırqan da öz növbəsində çıxış edərək Tibb Universiteti ilə əməkdaşlıqdan məmnun olduqlarını bildirdi. Daha sonra axtarış sisteminin necə işləməsinə həsr olunmuş təqdimatını tədbir iştirakçılarına çatdırdı. "Clinical Key" tətbiqinin mobil versiyasının olduğunu da vurğuladı. Sistemdə tibb sahəsinə aid milyondan çox mənbəyə giriş imkanı əldə etməklə yanaşı, pasiyentlərin ilkin şikayətlərini daxil etməklə ehtimal olunan xəstəliklərin filtrlənmiş nəticələrini əldə etməyin mümkün olduğunu söylədi. Müasir tibbi yeniliklərin və nəşrlərin artıq əlçatan olduğunu vurğuladı.

Təqdimat axtarış sisteminin işləmə mexanizmini izah edən praktiki hissə ilə davam etdi.

**ATU-nun mətbuat xidməti**

# Hepatologiyaya dair elmi konfrans keçirildi

**Dekabrın 9-da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında hepatologiya üzrə elmi konfrans keçirilib.**



Tədbirin açılış hissəsində Tədris Cərrahiyyə Klinikasının direktoru, professor Nuru Bayramov çıxış edərək Azərbaycanda tibb elminin qazandığı nailiyyətlər, xüsusilə də qaraciyər xəstəliklərinə dair sahədə əldə olunan uğurlardan danışıb. O, ATU-nun Tədris Cərrahiyyə Klinikasının hepatologiya üzrə mürəkkəb əməliyyatların icra olunduğunu da vurğulayıb. Professor N.Bayramov son illər təşkil olunan elmi-praktik konfranslarda gənclərin daha çox yer aldığından məmnun olduğunu da bildirib.





Sonra məruzəçilər tədbir iştirakçılarına təqdim edilib. Qeyd olunub ki, hepatoloq Gülnarə Ağayeva yüksək ixtisaslı kadr kimi həm də biliklərini gənclərlə bölüşür, elmi seminarlar təşkil edir.

Qaraciyər xəstəlikləri, onların müasir metodlarla diaqnostika və müalicəsi, bu sahədə dünyada mövcud təcrübədən bəhs edən toplantıda ölkəmizin aparıcı tibb müəssisələrinin mütəxəssisləri iştirak ediblər. Grand Hospitalın nümayəndəsi, hepatoloq Gülnarə Ağayeva "Qaraciyər sirrozu, patogenez, etiologiyası" mövzusunda məruzə ilə çıxış edib. Mərkəzi Klinik Xəstəxananın qastroenteroloqu Emin Verdiyev isə "Hepatik ensefalopatiya" mövzusunda fikirlərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Avrasiya hospitalının qastroenteroloqu Aqil Ağakişiyev, ATU-nun həkim-rezidenti Şahnaz Atayeva isə kəskin qaraciyər çatışmazlığı mövzusunda məruzələrini təqdim ediblər.

# Kafedranın kitab rəfi

**Tibb elmi daim inkişaf etməkdə və yeniləşməkdədir. Bu dinamik prosesə qoşulmaq, dünya tibb elminin hər bir yeniliyini, nailiyyətini mənimsəmək, bu bilikləri tələbələrə çatdırmaq üçün dərsliklərin və dərs vəsaitlərinin yazılması günün ən vacib məsələlərindən biridir.**

*Əmiraslanov Ə. T., Qazıyev A.Y.: "Onkologiya " Elmi redaktor: G. Mehdiyeva; Rəyçilər: akademik C. Əliyev, akademik B. Ağayev; (Dərslik) Bakı – "Təhsil", 2010.- 912 səh.*




Dərslik ümumi və xüsusi hissələr olmaqla 27 fəsildən ibarətdir.Ümumi hissəyə 8 fəsil daxildir. Burada onkologiyanın ümumi məsələləri (şişlərin bioloji xassələri, morfologiyası, nomenklaturası və təsnifatı, bədxassəli şişlərin epidemiologiyası və profilaktikası, etiologiyası və patogenezi, kanserogenez, şişəleyhinə rezistentlik və ümmunitet, bədxassəli şişlərin diaqnostika və müalicə üsulları Azərbaycanda onkoloji xidmətin təşkili, onkologiyada deontologiya və reabilitasiya) barədə ətraflı məlumat verilmişdir.

Dərsliyin 19 fəsildən ibarət ikinci-xüsusi hissəsində bədxassəli şişlərin ayrı-ayrı nozoloji formaları tədris proqramına uyğun olaraq ardıcıllıqla, tələbənin tədris materialını mənimsəməsini asanlaşdıracaq şəkildə ətraflı şərh edilmişdir. Burada hər bir nozoloji forma izah edilərkən əvvəlcə giriş xarakterli məlumat verilmiş, sonra isə orqanın klinik anatomiyası, xəstəliyin epidemiologiyası, etiologiyası və patogenezi, profilaktikası, patoloji anatomik xarakteristikası, histoloji quruluşu, böyüməsi və yayılması, TNM sistemi üzrə Beynəlxalq təsnifatı, klinikası, diaqnostikası, diferensial diaqnostikası, müalicəsi, müalicənin nəticələri və proqnozu, dispanser müşahidə məsələləri geniş işıqlandırılmışdır. Dərslikdə onkoloji xəstəliklərin epidemiologiyasına dair mütəxəssislərin şəxsi tədqiqat işlərinin nəticələri də öz əksini tapmışdır.

Təqdim olunan kitab müəlliflərin onkologiyaya dair çoxillik təcrübələrinə əsaslanaraq yazılmış irihəcmli orijinal dərslik olub, çoxsaylı şəkillərlə illüstrasiya edilmiş və elmin son nailiyyətlərini özündə əks etdirir.

Dərslik Tibb Universitetində təhsil alan tələbələrlə yanaşı, onkoloqlar, onkoloji xəstəliklərin diaqnostikası və müalicəsi ilə məşğul olan mütəxəssislər, onkologiya ixtisası üzrə rezidenturada təhsil alan həkimlər və təbabətin müxtəlif sahələrində çalışan və gündəlik fəaliyyətlərində onkoloji xəstələrlə rastlaşan həkimlər də istifadə edə bilərlər.

*Əmiraslanov Ə. T., Qazıyev A.Y.: "Uşaq onkologiyası " Elmi redaktor:dosent F. İslamzadə; Rəyçilər: akademik C. Əliyev, akademik A. Namazova, professor Ş. Quliyev; (Dərslik) Bakı – "Maarif" nəşriyyatı, 2010.- 648 səh.*




Ali tibb təhsili sistemi üçün nəzərdə tutulmuş "Uşaq onkologiyası" dərsliyi Azərbaycan dilində bu sahəyə dair ilk dəfə yazılmış dərslik olmaqla ümumi və xüsusi hissələrdən ibarətdir.

Ümumi hissəyə 9, xüsusi hissəyə 11 fəsil daxildir. Ümumi hissədə uşaq onkologiyasının ümumi məsələləri-şişlərin bioloji xassələri, morfologiyası və təsnifatı, uşaq onkologiyasının xüsu-siyyətləri uşaqlarda bədxassəli şişlərin etiologiyası, epidemiologiyası, diaqnostika və müalicə üsulları, uşaqlara onkoloji xidmətin təşkili, deontologiya və reabilitasiya məsələləri ətraflı şərh edilmişdir. Xüsusi hissədə uşaqlarda təsadüf edilən bütün şiş formaları (hemoblastozlar, mərkəzi sinir sisteminin şişləri, baş və boyun şişləri,nefroblastoma, neyroblastoma, retinoblastoma, yumşaq toxuma və sümük şişləri, cinsiyyət orqanlarının şişləri, dəri şişləri, qaraciyər şişləri və nadir təsadüf edilən digər bədxassəli epitelial şişlər) haqqında məlumat verilmişdir.

Dərslik quruluşuna görə bu sahəyə dair mövcud olan xarici ədəbiyyatlardan fərqlənir. Hər bir nozoloji forma vahid ardıcıllıqla yazılmışdır ki, bu da fənnin tədrisini və mənimsənilməsini asanlaşdırır. Belə ki, ümumi hissə kifayət qədər geniş yazılmış, xüsusi hissədə nozoloji formalar yazılarkən əvvəlcə qısa, giriş xarakterli məlumat verilmiş, sonra xəstəliyin cinsiyyət və yaş xüsusiyyətləri, etiologiyası, təsnifatı, klinikası, diaqnostikası müalicəsi və müalicənin nəticələri ətraflı işıqlandırılmışdır. Dərslikdə uşaq onkologiyasına dair test tapşırıqları verilmişdir ki, bunların da tələbələrin fənni mənimsəmə səviyyəsinə nəzarət etməyi asanlaşdırır. Dərslikdə müəlliflərin uşaq onkoloji xəstəliklərinin epidemiologiyasına dair şəxsi tədqiqat işlərinin nəticələri də öz əksini tapmışdır.

Müəlliflər kitabın ön sözündə dərsliyi hazırlayarkən uşaq onkologiyasının bütün sahələrini əhatə etməyə çalışdıqları və elmin son nailiyyətlərinin burada öz əksini tapdığını qeyd edirlər.

Dərslikdən ali tibb təhsili sistemində təhsil alan tələbələrdən başqa onkoloqlar, uşaqlarda şiş xəstəliklərinin diaqnostikası və müalicəsi ilə məşğul olan mütəxəssislər və təbabətin müxtəlif sahələrində çalışan həkimlər də istifadə edə bilərlər.

*Əmiraslanov Ə. T., Qasımov N. V.: Qığırdaq şişləri" Elmi redaktor: dosent F. İslamzadə; Rəyçilər: akademik C. Əliyev, professor Q. Canbaxışov; (Monoqrafiya) Bakı- "Təbib"nəşriyyatı, 2001.- 200 səh, şəkilli.*




Tərtib edilən bu monoqrafiya qığırdaq şişlərinin müasir problemləri, təsnifatı, diaqnostika və müalicə üsulları proqnozunun tək və çoxmilli analiz əsasında müəyyənləşməsi kimi mühüm məsələlərə həsr olunmuşdur.

Səhv diaqnostikanın bir tərəfdən böyük şikəstedici əməliyyatlara, digər tərəfdən isə prosesin düzgün qiymətləndirilməsi zamanı metastazların meydana gəlməsinə, residivlərə və xəstəliyin ölümlə nəticələnməsinə gətirib çıxarması qənaətinə gələn müəlliflər qeyd edirlər ki, sümüyün zədələnməsi sahəsini geniş həcmli seqmentar rezeksiyanın və onun endoprotezlərlə əvəz olunması ilə aparılan əməliyyatların tətbiqi qığırdaq mənşəli şişlərin müalicəsində yeni istiqamətdir.

Monoqrafiyada giriş fəsli ilə yanaşı, "Qığırdaq toxumasının şişləri- problemin müasir vəziyyəti", "Klinik müşahidələr və tədqiqat metodlarının ümumi xarakteristikası" və s. bu kimi mövzuların geniş şərhi öz əksini tapmışdır. Bundan əlavə "Sümük xondrosarkoması olan xəstələrdə proqnozu müəyyənləşdirən amillər", " İkincili xondrosarkomalı xəstələrdə proqnozu müəyyənləşdirən amillər " və "İkincili xonrosarkomalı xəstələrdə residivin fərdi proqnozlaşdırılması" başlıqlı bölmələrdə aparılan müşahidələr ədəbiyyatda verilən məlumatlarla müqayisəli şəkildə araşdırılmışdır.

Kitab onkoloqlar, ortoped-travmatoloqlar, cərrahlar və tibb elminin müvafiq sahəsi ilə maraqlanan digər mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

*Əmiraslanov Ə. T., Bayramov R. B.: "Abdominal onkologiya " Elmi redaktor: G. Mehdiyeva; Rəyçi: akademik C. Əliyev; (Dərslik) Bakı – "Təhsil", 2004.- 320 səh.*




Qarın boşluğu üzvlərinin bədxassəli şişləri ümumi bədxassəli şiş təsadüflərinin 1/3-dən çoxunu təşkil edir və hər il dünyada 3 milyona yaxın insan qeyd olunan xəstəliklərdən dünyasını dəyişir. Qarın boşluğu üzvlərinin bədxassəli şişləri uzun müddət heç bir klinik əlamət üzə çıxarmadığından xəstələrin çoxu prosesin gecikmiş dövrlərində həkimə müraciət edirlər.

Bu kitabın tərtib olunmasında qarın boşluğu üzvlərinin bədxassəli şişlərini risk amillərinə, epidemioloji xüsusiyyətlərinə, müasir diaqnostika və müalicə prinsiplərinə dair çoxsaylı müasir tədqiqat işlərinin nəticələrindən istifadə olunmuşdur. Kitabda qarın boşluğu üzvlərinin onkoloji xəstəliklərində irsi meyllikləri və genetik dəyişikliklərin araşdırılmasındakı ən son elmi nailiyyətlərə xüsusi diqqət verilmişdir. Son illərin diaqnostika vasitələrinin təkmilləşməsi daxili üzvlərin bədxassəli şişlərinin daha erkən mərhələdə aşkar edilməsinə imkan yaratmışdır. Müasir müayinə üsullarının həssaslıq və dəqiqliyi kitabda çox geniş təhlil edilmiş, müalicə üsullarının effektivlikləri prospektiv randomizə olunmuş tədqiqatların nəticələri əsasında dəqiqliklə qiymətləndirilmişdir.

Kitab qarın boşluğu üzvlərinin bütün xoş və bədxassəli şişlərinin patogenezinə, yayılma qanunauyğunluqlarına, müasir diaqnostika və müalicə prinsiplərinə həsr edilmişdir.

Kitab onkoloqlar, qastroenteroloqlar, cərrahlar, patomorfoloqlar üçün nəzərdə tutulmuşdur. Kitabdan həmçinin Tibb Universitetinin tələbələri əlavə bilik mənbəyi kimi istifadə edə bilərlər.

*Əmirəliyev N. M., Əmiraslanov A. Ə.: "Baş-boyun şişləri" Elmi redaktor: Ə. Ağamirzəyev; Rəyçilər: professor Ə.M. Məmmədov, professor Ç.R.Rəhimov; (Dərslik) Bakı – "Mütərcim" nəşriyyatı, 2012.- 4 36 səh.*




Baş-boyun nahiyəsinin şişləri onkoloji xəstəliklərin kliniki və bioloji olaraq mürəkkəb bir qrupunu təşkil edir. Bu nahiyənin şişləri olan xəstələrin müalicəsinin nəticələri hələ də qənaətbəxş deyil. Bu ilk növbədə, xəstələrin ixtisaslaşmış klinikaya gec müraciət etməsi ilə əlaqədardır. Xəstəliyin gecikmiş mərhələlərdə aşkar olunmasının əsas səbəbi isə ümumi müalicə şəbəkəsi həkimlərində sayıqlığın olmamasıdır. Ona görə də ölkəmizdə ilk dəfə olaraq hazırlanan bu dərslik mühüm aktuallıq kəsb edir.

Dərslikdə onkologiyanın ümumi problemləri, bədxassəli şişlərin diaqnostika və müalicəsinin müasir aspektləri araşdırılmış, baş-boyun nahiyəsinin bədxassəli şişlərinin epidemiologiyası, etionpatogenezi, onların diaqnostika və müalicəsinin müasir alqoritmləri işıqlandırılmışdır. Dərslikdə həmçinin baş-boyun xərçənginin regionar metastazların profilaktikası və müalicəsin ən müasir aspektləri öz əksini tapmış, o cümlədən bu nahiyənin bədxassəli şişlərinin rekonsturktiv-plastik cərrahiyyəsi metodları haqqında məlumat verilmişdir.

Dərslik Tibb Universitetinin tələbələri və rezidentləri üçün nəzərdə tutulmuşdur. Dərslikdən həmçinin onkoloqlar, cərrahlar, radioloqlar, otorinolarinqoloqlar, stomatoloqlar, üz-çənə cərrahları və digər ümumi şəbəkə həkimləri də istifadə edə bilərlər.

**Hazırladı: M.ƏLƏKBƏRLİ**

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN

## MÜSABİQƏ ELAN EDİR

**Kafedraların professorları (elmlər doktorları):**

- I MPF-nin II daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer

**Kafedranın dosenti:**

- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**

- I MPF-nin II daxili xəstəliklər kafedpası - 1 yer
- I MPF-nin III daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid )
- III cərrahi xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer (0,5 vahid)
- İnsan anatomiyası kafedrası - 1yer
- Normal fiziologiya kafedrası - 1 yer (0,5 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer (0,5 vahid)
- Şüa diaqnostikası və terapiyası kafedrası - 1 yer
- I uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Pediatriya fakültəsinin daxili xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- Histologiya, embriologiya və sitologiya kafedrası - 1 yer
- Bioloji kimya kafedrası- 1 yer (0,5 vahid)

**Kafedranın müəllimi:**

- HTF-nin tibbi profilaktika kafedrası - 1 yer

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti, 16 dekabr 2015-ci il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**Bakı şəhəri- Az 1022, Bakıxanov küçəsi 23. Telefon: 597-10-08**

## Gələn ildən tibb işçilərinin sertifikasiya imtahanları bir mərhələdə aparılacaq

Nazirlər Kabinetinin 2015-ci il 1 dekabr tarixli qərarına əsasən 2016-cı ilin yanvar ayından etibarən sertifikasiya imtahanı bir mərhələdə keçiriləcək.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, artıq müsabibə mərhələsi aparılmayacaq. Sertifikasiya imtahanının sualları iki müxtəlif variantda 60 test və 5 klinik tapşırıqdan ibarət olmaqla 2 hissəyə bölünür. Sualların test hissəsi informasiya texnologiyaları və xüsusi optik cihazlar vasitəsilə oxunur. Klinik tapşırıq hissəsi isə sertifikasiyaya cəlb edilən səhiyyə mütəxəssisinin ixtisasına aid, habelə onun praktiki bilik səviyyəsini və peşə vərdişlərini müəyyən edən 5 klinik tapşırıqdan ibarət olur və sual vərəqəsində göstərilir. Klinik tapşırıqlar səhiyyə mütəxəssislərinin klinik məntiqini, konkret verilmiş halda klinik qərarvermə qabiliyyətini müəyyən etməyə imkan yaradır.

Test üzrə 40 bal, klinik tapşırıq üzrə 16 bal toplamış şəxslər sertifikasiyadan keçə biləcəklər.

### Etibarsız sayılır

Stomatologiya fakültəsinin II kurs, $720^{b}$ qrup tələbəsi Mertcan Akdönerin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $108^{a}$ qrup tələbəsi Əliyeva Türkan Rizvan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $795^{b}$ qrup tələbəsi Milad Eşqi Qulaməli oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $79^{a}$ qrup tələbələri Ağasıyeva Günel İkirəm qızı, Alıyeva Fəridə Şükür qızı, Babayev Baxşəli Fəxrəddin oğlu, Cahangirova Aysel İravandar qızı, Əliyeva Ülkər Fuad qızı, Hüseynzadə Nərmin Əlisa qızı, Mehdiyeva Türkan Azad qızı, Mehtiyeva Şəlalə Vaqif qızı və Süleymanzadə Nərgiz Teyyub qızının adına verilmiş qiymət kitabçaları itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $290^{b}$ qrup tələbəsi Babayeva Aytac Fariz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda dəyişiklik müzakirə edilib

Dekabrın 14-də V çağırış Milli Məclisin səhiyyə komitəsinin ilk iclası keçirilib.



Əvvəlcə Xəzər dənizindəki "Günəşli" yatağının 10 saylı özülündə baş vermiş qəza nəticəsində həlak olan neftçilərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Komitə sədri Əhliman Əmiraslanov gündəlikdə duran məsələlər barədə məlumat verib. Komitənin fəaliyyətindən danışan Əhliman Əmiraslanov bildirib ki, ölkəmizdə səhiyyənin inkişafına, əhalinin sağlamlığının qorunmasına göstərilən diqqət prioritet istiqamətlərdən biridir. Son illər bu sahədə çox böyük işlər görülüb. Bütün regionlarda ən müasir tələblərə cavab verən yeni xəstəxanalar inşa olunub.

İclasda "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Bildirilib ki, Qanunun 49.1-ci maddəsinə edilən əlavəyə görə sertifikasiya zamanı praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərə (işçilərə) onların fəaliyyət sahəsinə bilavasitə aid olmayan sualların verilməsi, habelə onların siyasi baxışlarına və etiqadına görə qiymətləndirilməsi yolverilməzdir.

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra iclasda komitənin 2016-cı il yaz sessiyası üçün təsdiqlənmiş qanunvericilik işləri planına və digər məsələlərə baxılıb. Bildirilib ki, iş planına daxil olan "Reproduktiv sağlamlığın qorunması haqqında" qanun layihəsi reproduktiv hüquqların həyata keçirilməsi üçün hüquqi əsasları müəyyən edir. Çıxış edənlər sənədin əhəmiyyətindən danışaraq bildirib ki, bu qanun ailənin sağlamlığının qorunmasına, ana və uşaq ölümü hallarının qarşısının alınmasına xidmət edəcək. Qeyd edilib ki, layihə artıq növbəti sessiyanın gündəliyinə salınıb.

Bildirilib ki, iş planına "Optika haqqında" qanun layihəsi də daxil edilib. İclasda bu qanun layihəsi müzakirə edilib, təkliflər səsləndirilib.

**Bizə yazırlar**

## MİNNƏTDARLIQ



Redaksiyamıza Bakı sakini Nəriman Hüseynovun minnətdarlıq məktubu daxil olub. Məktubda qeyd edilir ki, bu ilin oktyabrın 23-də Milli Onkologiya Mərkəzinin Neyrocərrahiyyə şöbəsinin müdiri həkim Rasim Babayev tərəfindən cərrahi əməliyyat olunub. N.Hüseynov Rasim həkimin gülərüz, xoş xasiyyət və eyni zamanda şəfalı əlləri olmasından yazır. İstəyirik ki, yenidən onu ağrısız həyata qaytaran Rasim Babayevə qəzetimiz vasitəsi ilə minnətdarlığını bildirsin.

Qeyd edək ki, Rasim həkim geniş iş təcrübəsinə malik, dünyanın qabaqcıl ölkələrinin təcrübəsini ölkəmizə gətirərək tətbiq edən həkimlərimizdəndir. O, uzmanlığı Türkiyənin Mərmərə Universitetində alıb. ABŞ, Kanada, Almaniya, İsveçrə, Fransa və başqa ölkələrdə kurs və konfranslarda iştirak edib.

## Azərbaycan Tibb Universitetin güləşçilərin turnirdə uğurlu iştirakı

Dekabrın 5-6-da Azərbaycan Memarlıq və İnşaat Universitetinin 40 illik yubileyi münasibəti ilə təntənəli idman tədbiri keçirilib.



AMİU-nun idman turnirində 6 ali məktəbin 87 tələbəsi qatılıb. Azərbaycan Tibb Universiteti turnirdə "Yunan-Roma" güləşi üzrə 10 nəfərdən ibarət komanda ilə təmsil olunub. Həmin turnirdə tələbələrimizin biri II, beşi isə III yerə layiq görülüb.

"Təbib" idman klubunun sədri, professor Kamal Kəbirlinski komandanın qaliblərini, müəllim-məşqçi, ə.i.x., p.f.d., professor Zakir Məmmədovu təbrik edib və onlara yeni qələbələr arzulayıb.

## Məşhur həkim Leo Bokeriya pəhriz haqqında anlayışı alt-üst edib



Məşhur sovet və Rusiya həkimi, ürək cərrahı, ixtiraçı, professor, Rusiya Elmlər Akademiyasının və Rusiya Tibb Elmləri Akademiyasının akademiki, RF Səhiyyə Nazirliyinin Baş kardiocərrahı Leo Bokeriya ənənəvi pəhrizlər barədə təsəvvürü alt-üst edib.

Həkimin sözlərinə görə, pəhrizlər və qida rejimi barədə sabitləşmiş təsəvvür yanlışdır və insana faydalı deyil.

Bununla yanaşı, 20-dən çox uşaq üzərində mürəkkəb açıq ürək əməliyyatlarının icrası gözlənilir. Bu əməliyyatların 12-si Heydər Əliyev Fondunun ayırdığı maliyyə vəsaiti hesabına həyata keçiriləcək.

Həkim deyib: "Səhərlər doyunca yeməyi nəzərdə tutan "Səhər yeməyini özün ye" anlayışı tam cəfəngiyatdır. Çünki siz yuxudan oyananda orqanızm ancaq-ancaq işlək vəziyyətə gəlir, siz süfrəyə oturursunuz, bir boşqab ət, yaxud xəmir yeməyi yeyirsiniz, üstündən böyük stəkanda nəsə içirsiniz. Sonra geyinib işə yollanırsız. Onda daha sizdən nə işçi?"Kardiocərrah bildirib ki, hələ cavanlıqda Qərbdəki həmkarlarından örnək götürüb: onlar səhərlər bir fincan qəhvə içir, naharda buterbrod, axşamlar doyumlu şam yeməyi yeyir, sonra idmanla məşğul olurmuşlar. L.Bokeriya deyib: "Mən deyərdim ki, səhər yeməyini düşməninə ver, naharda qəlyanaltı, axşam isə normal yemək ye, sonra da idmanla məşğul ol".

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 278